http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 22 (1618) 31 dekabr 2015 - ci il Qiyməti 40 qəpik

# Dünya azərbaycanlılarına



***Əziz həmvətənlər!***
***Hörmətli soydaşlar!***
***Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.***

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına - Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 dekabr 2015-ci il.

## BU SAYIMIZDA



Azərbaycan Tibb Universitetində 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri müzakirə edildi 2

Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi Universitetin bütün əməkdaşlarını, o cümlədən professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirlər!

5 İL SAĞLIĞINIZIN KEŞİYİNDƏ 4



GÖRKƏMLİ FİLOSOFUN 90 İLLİK YUBİLEYİ QEYD OLUNDU 4



ATU-da ana və uşaq sağlamlığına dair seminar keçirildi 3

- **Böyük Elmi Şuranın dekabrın 28-də keçirilən növbəti yığıncağını açan universitetin rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev gündəliyə keçməzdən öncə uzun illər universitetimizə rəhbərlik etmiş akademik Əhliman Əmiraslanovu Milli Məclisin üzvü və səhiyyə komitəsinin sədri seçilməsi münasibətilə təbrik etdi. Universitetimizin 12-ci rektoru olmuş akademik Əhliman Əmiraslanovun 23 il müddətində ölkəmizin yeganə ali tibbi təhsil müəssisəsindəki müstəsna xidmətlərindən danışdı. Universitetimizin prorektoru, professor Rafiq Məmmədhəsənovu da Milli Məclisin və səhiyyə komitəsinin üzvü seçilməsi münasibətilə təbrik edən S.Əliyev idman kafedrasının müdiri, professor Kamal Kəbirlinskini isə Prezident təqaüdünə layiq görülməsi münasibətilə təbrik etdi. Növbəti təbrik II daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizova ünvanlandı. Yubilyara universitetin "Fəxri fərmanı" təqdim olundu.**



# Böyük Elmi Şurada

*Bundan sonra iclasın gündəliyini diqqətə çatdıran prorektor "Azərbaycan Tibb Universitetində 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü tədris hissə müdiri, dosent Nəsimi Qasımova verdi.*

Yola saldığımız 2015-ci ilin ölkəmizin həyatında yadda qalan ictimai-siyasi və mədəni hadisələrlə zəngin olduğunu bildirən N.Qasımov təhsilin keyfiyyətini yüksəltmək üçün təhsil alanlar arasında rəqabət mühiti yaratmaq, onların tədris prosesində fəallığını artırmaq və təhsilə marağını stimullaşdırmaq məqsədilə ölkə prezidenti möhtərəm İlham Əliyev cənablarının 10 noyabr 2015-ci il tarixli Sərəncamı ilə «Doktorantura, ali təhsil, orta ixtisas və ilk peşə ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli Sərəncamında



dəyişikliklər edildiyini vurğuladı: "Edilmiş dəyişikliklərə əsasən qarşıdan gələn imtahan sessiyasının nəticələrinə görə ölkənin ali təhsil və orta ixtisas təhsili müəssisələrində əyani təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla təyin olunacaqdır".

N.Qasımov cari tədris ilinin keçən 4 ayı ərzində universitetdə tədrisin keyfiyyətinin metodiki cəhətdən yenidən qurulması üçün xeyli işlər görüldüyünü dedi: "Kafedralar tədrisin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə son informasiya texnologiyaları ilə təmin olunmuş, universitet klinikalarında aparılan diaqnostik və müalicə işlərinə tələbələrin, magistr, rezident və doktorantların daha yaxından cəlb olunması, yeni dərslik, dərs vəsaiti və metodiki vəsaitin hazırlanması və çapı, professor-müəllim heyətinin və tələbələrin sosial həyatının yaxşılaşdırılması və s. davam etdirilmişdir.

Universitetin əsaslı kitabxanası əsaslı təmir olunmuş, 5 saylı tədris binasında sanitar qovşağı və istilik sistemi tam təmirdən çıxmış, 200 nəfərlik mühazirə zalı tələbələrin istifadəsinə verilmişdir. 1 saylı şəhər xəstəxanasından tədris bazası kimi istifadə edən cərrahiyönümlü kafedralar universitetin klinikalarına köçürülmüş, patoloji anatomiya kafedrasının yeni patomorfoloji laboratoriyası fəaliyyətə başlamışdır".

Dekanlıqlar və ictimai təşkilatlar tərəfindən bütün kafedralarda vaxtaşırı reydlər keçirildiyini, professor-müəllim heyətinin işə, tələbələrin isə dərsə davamiyyətinin nəzarətdə saxlanıldığını söyləyən N.Qasımov bildirdi ki, cari dərs ilində 13 tələbə universitetdən öz arzusu ilə xaric olunmuşdur. Semestr boyu dərsə davam etməyən və cari tədris ili üçün qeydiyyatdan keçməyən 4 tələbə universitetdən xaric olunacaqdır.

N.Qasımov hər semestrin sonuna bir ay qalmış bütün fakültələrin kursları üzrə keçirilən istehsalat müşavirələrində qaldırılan problemlərə də toxunaraq qeyd etdi ki, tələbələr bir sıra fənlər üzrə proqramın çox yüklənməsindən, ev tapşırıqlarının çoxluğundan, fənnin mənimsənilməsində çətinlik yaradıldığından, ingilis bölmələrində dərs deyən müəllimlərin dil problemlərinin olmasından, 5-10 dəqiqə gecikənlərin dərsə buraxılmamasından, tələbələrin gündəlik fəaliyyətinin qiymətləndirilməsində sorğuların təlimata uyğun gəlməməsindən, kompyuter siniflərinin səmərəli çalışmamasından, ixtisas kafedralarında bacarıq və vərdişlərin öyrədilməsi üçün laborator şəraitin lazımi səviyyədə olmamasından , bir sıra kafedralarda sərbəst ev tapşırıqlarının qəbuluna qoyulan vaxt məhdudiyyətinin qeyri-adekvatlığından, nə qədər yaxşı cavab versən belə az balla qiymətləndirmə aparılmasından, ingilis bölməsində dərslərin səviyyəsinin tələbələri qane etməməsindən, bəzi fənnlər üzrə proqramın ona ayrılan kreditlərdən xeyli ağır olmasından, mühazirələrin maraqsız oxunmasından, rus bölməsi üçün dərsliklərin azlığından şikayətlənirlər.



N.Qasımov diplomdansonrakı rezidenturada mütəxəssis hazırlığının istər ölkə, istərsə də universitetimiz üçün yeni, çətin bir iş olduğunu diqqətə çatdırdı: "Təhsilin bu pilləsində tədrisə 2-ci dərəcəli bir iş kimi baxmaq olmaz. Unutmayaq ki, rezidentura təhsilindən sonra məzunlarımız sərbəst həkim kimi fəaliyyət göstərəcəklər. Nəzərə alsaq ki, rezidentura təhsil respublikanın 30-dan çox təhsil və tibb müəssisəsində aparılır və bunların içərisində Azərbaycan Tibb Universiteti müsbət mənada çox fərqlənir.

Rezidenturada tədris aparan kafedraların dərs yükü hesablanaraq onların illik dərs yükünə əlavə edilmiş, bu da kafedraların ixtisar problemlərinin müsbət həllinə kömək etmişdir. Kafedralar da öz növbəsində bu qurumda tədrisi proqrama uyğun təşkil etməli, dərs yükünü müəllimlər arasında bölməli və icrasına ciddi nəzarət etməlidirlər.

Universitetdə təhsil alan xarici ölkə vətəndaşlarının təhsilinin təşkili məsələsi üzərində dayanan tədris hissə müdiri xarici ölkə vətəndaşlarının tələbə kontingentimizin önəmli hissəsini təşkil etdiyini söylədi: "Belə ki, 2015/2016-cı tədris ilinin əvvəlindən universitetdə 22 ölkədən 616 tələbə, 162 dinləyici, 18 ixtisasartıran, 20 nəfərə yaxın rezident, 4 nəfər doktorant, cəmi 880 nəfər xarici vətəndaş təhsil alır. Bu tələbələrdən İordaniya vətəndaşı olan 6 nəfəri dövlət xətti ilə, 113 tələbə isə Türkiyə Cumhuriyyəti Seçmə və Yerləşdirmə Mərkəzi (YÖK) yolu ilə təhsilini davam etdirirlər".

Digər məsələləri də şura üzvlərinin diqqətinə çatdıran N.Qasımov payız semestrinin imtahan sessiyasının uğurla keçəcəyinə əminliyini bildirdi.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, AMEA-nın müxbir üzvü Nuru Bayramov, kafedra müdirləri Musa Qəniyev, Qayıbverdi İsgəndərov, İbrahim Əhmədov və Virtual Test Mərkəzinin rəhbəri Şahin Bayramov hesabatı qənaətbəxş qiymətləndirərək payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti ilə bağlı fikirlərini və təkliflərini şura üzvləri ilə bölüşdülər.

S.Əliyev müzakirələrə yekun vuraraq səslənən fikirlərə münasibətini açıqladı. Universitetin bütün mərhələlərdə, o cümlədən imtahan sessiyasına hazırlıq səviyyəsinin, yeni tələbələrin davamiyyəti, Prezident təqaüdçüləri ilə bağlı məsələlərin, tədrisin kəmiyyət və keyfiyyət göstəricilərinin, görülən işlər və həllini gözləyən problemlərin məruzədə çox ətraflı, ardıcıl şəkildə əks olunduğunu dedi. Kafedra müdirlərinin və imtahan komissiyası üzvlərinin imtahanda iştirak etmələrinin vacibliyinə toxunan prorektor imtahana gəlməyən mühazirə müəllimləri və kafedra müdirlərinin tədris yükü, konsultasiya yükünə yenidən baxılacağını vurğuladı.

Tələbələrin il boyu biliyinə verilən keçid ballarının məqsədli şəkildə aşağı salınmasını kəskin tənqid edən prorektor bir zamanlar orta məktəblərin X-XI siniflərini əhatə edən repititorluğun artıq universitetin VI kursuna çatmasından təəssüfləndiyini də bildirdi. Tələbələrə təqaüd verilməsinin yeni qaydalarına da aydınlıq gətirən S.Əliyev qeyd etdi ki, təqaüdə düşən tələbələrin miqdarında artım yoxdur, əvvəllər yalnız ödənişsiz əsaslarla oxuyan tələbələrə verilən təqaüdə indi ödənişli əsaslarla oxuyan tələbələr də ortaq olacaqlar. Ona görə də qiymətləndirmənin düzgün aparılması olduqca zəruridir.

Aşağı kurslarda Prezident təqaüdçülərinə il boyu verilən balların 40 balı keçməməsinin də sual doğurduğunu söyləyən prorektor bildirdi ki, belə hallarda tələbə imtahandan hətta 50 bal toplasa da, Prezident təqaüdünə düşmür, bu isə doğru yanaşma deyil. Yazılan testlərin mövcud tədris proqramını əhatə etməsinə, yuxarı kurslarda bacarıqların öyrədilməsinə və rezident hazırlığının prioritetlərinə də toxunan prorektor çıxışının sonunda şura üzvlərini, universitet kollektivini qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etdi.

Böyük Elmi Şura həmişə olduğu kimi müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# İsrail səfiri ATU-da qonaq oldu

**Dekabrın 18-də İsrail Dövlətinin Azərbaycandakı Səfiri Dan Stav və missiya rəhbərinin müavini Arnir Rom ATU-nun qonağı olub.**



ATU-nun tədris işləri üzrə prorektoru Sabir Əliyev ATU-nun fəaliyyəti barədə qonaqlara məlumat verdi. Onun sözlərinə görə, bu ali təhsil ocağı 1919–cu ildə Bakı Dövlət Universitetinin tərkibində fakültə kimi yaradılıb. 1930-cu ildən isə müstəqil ali məktəb kimi fəaliyyət göstərməyə başlayıb: “Universitetimiz bu il müstəqil universitet kimi 85 yaşını, fakültə kimi isə 96-cı yaşını qeyd edib”. ATU-nun professor-müəllim heyəti haqqında da məlumat verən prorektor S.Əliyev bildirdi ki, 6 fakültəsi olan bu ali təhsil ocağında 160-dan çox professor, 320 dosent, 800-ə yaxın elmlər namizədi və ümumilikdə 1300 nəfər akademik personal çalışır: “Hazırda universitetdə 7000-dən çox tələbə və rezident, həmçinin 1000-dən çox xarici ölkə vətəndaşları olan tələbələr təhsil alırlar”.

Prorektor S.Əliyev həmçinin ATU-nun nəzdindəki klinikalar barədə məlumat verdi.

İsrail Dövlətinin Azərbaycandakı səfiri Dan Stav öz növbəsində qonaqpərvərlik üçün təşəkkür edərək, burada olmaqdan məmnunluğunu bildirdi. Qonaq gələcəkdə qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün əlindən gələni edəcəyini dedi.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova İsrailin ali təhsil müəssisələri ilə ATU arasındakı əlaqələrdən danışdı. O ATU-nun bir sıra beynəlxalq layihələrdə yer aldığını, tələbələrin qarşılıqlı mübadilə proqramına qoşulduğunun da xatırlatdı.

Daha sonra ATU-nun xarici tələbələrlə iş üzrə dekanı İsmayıl Əfəndiyev hazırda ATU-da 4 İsrailli tələbənin təhsil aldığını bildirdi.O, həmçinin xarici tələbələr, onlar üçün yaradılan şərait haqqında da geniş məlumat verdi.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə şöbə müdiri Nadir Zeynalov da iştirak edirdi.

# ATU-nun Tədris Terapevtik Klinikasında müalicə olunan uşaqlar üçün yeni il şənliyi

Dekabrın 22-də ATU-nun Tədris Terapevtik Klinikasında müalicə olunan uşaqlar üçün yeni il şənliyi təşkil olunub.



Şaxta baba və Qarqızın iştirakı ilə keçirilən şənlikdə balacalar həm əylənib, həm də yarışıb. Sonda uşaqlara yeni il hədiyyələri paylanılıb.





# ATU-da ana və uşaq sağlamlığına dair seminar keçirildi

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında «Ana və uşaqların sağlamlığı mövzusunda maarifləndirici seminar keçirilib. Tədbir “Ana və uşaqların yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı»na əsasən təşkil olunub.**



Seminar Səhiyyə Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycan nümayəndəliyinin 2015-ci il üçün nəzərdə tutulmuş Fəaliyyət planına müvafiq keçirilib. Tədbirdə İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən “Diridoğulmanın beynəlxalq meyarlarının tətbiqi” ilə bağlı müxtəlif ölkələrin təcrübəsinə dair məlumatlar səsləndirilib.

Azərbaycan üçün bir ilk olan bu əməliyyatın gedişi haqqında Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri, uzman həkim Mirəli Məcidov məlumat verib. Onun sözlərinə görə, 35 yaşlı qadın 3 il əvvəl aorta qapaq stenozu problemi ilə həkimlərə müraciət edib. “Bu xanımda ürəyin aorta qapağının protezləşdirilməsi əməliyyatı icra edildi, mexaniki klapan yerləşdirildi. Əməliyyatdan sonrakı dönəmdə hansısa bir problem yaranmadı”.

Seminarda açılış nitqi ilə çıxış edən ATU Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov iştirakçıları salamlayaraq onlara tədbirin mövzusu ilə bağlı ətraflı məlumat verib. Onun sözlərinə görə, uşaq və yeniyetmələrin sağlamlığı ilə bağlı məsələlər Azərbaycanda hər zaman aktual olaraq qalmaqdadır.

“Bu məsələ dövlətimizin daim diqqət mərkəzindədir. Bu istiqamətdə onlarla qanun və qərar qəbul olunmuş, ölkə başçısı cənab İlham Əliyev tərəfindən 2013 və 2014-cü illərdə iki çox önəmli sənəd-“Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının Qanunu, “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub”.

N.Bayramov qeyd edib ki, ana və uşaqların sağlamlığının qorunması sahəsində çalışan həkim və orta tibb işçilərinin davamlı tibbi təhsilinin (təlimlərin və klinik təcrübələrin) həyata keçirilməsi, tibbi təhsil sahəsində tədris proqramlarının diridoğulmanın beynəlxalq meyarlarına uyğun olaraq təkmilləşdirilməsi çox vacibdir:

“Qarşıya qoyulan məqsədlərin reallaşdırılması, təlimlərin təşkili üçün Tədris Cərrahiyyə Klinikasında həm klinik, həm də tədris üçün şərait var. Tibb Universitetinin klinikası olaraq bu proqramın şərtlərinin həyata keçirilməsində aktiv iştirak etməyə hazırıq”.



Tədbirdə daha sonra vurğulandı ki, bütövlükdə səhiyyə ilə bağlı qəbul edilmiş 10-dan çox Dövlət Proqramının hamısında uşaqların sağlamlıq problemlərinə xüsusi yer ayrılıb. 2009-cu il Azərbaycanda “Uşaq ili” elan olunub. Səhiyyə Nazirliyinin apardığı ardıcıl və məqsədyönlü işlər nəticəsində uşaq sağlamlığı ilə bağlı bir çox nailiyyətlər əldə edilib.

# ATU tələbələri İİV infeksiyasından yoxlandılar

**Azərbaycan Tibb Universitetində (ATU) «QİÇS-lə mübarizə» adlı aksiya keçirilib. Respublika QİÇS Mərkəzi ilə ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə baş tutan aksiyanın məqsədi gənc tələbələri bu xəstəlik barədə məlumatlandırmaq olub.**



Kampaniya çərçivəsində ATU-da İmmun Çatışmazlığı Virusuna (İİV) səbəb olan xəstəliklə bağlı müayinə məntəqəsi təşkil olunub. Burada universitetin 450-yə yaxın tələbəsi İİV virusundan yoxlanmaq üçün ekspress testdən keçib. Hər kəsə 15-20 dəqiqə ərzində İİV infeksiya daşıyıcısı olub-olmadığı barədə test cavabları təqdim olunub.



Qeyd edək ki, Səhiyyə Nazirliyi Respublika QİÇS Mərkəzi bənzər aksiyanı Bakı və regionlarda yerləşən ali təhsil ocaqlarında, ticarət mərkəzlərində, avtovağzallarda, dövlət və özəl sektor müəssisələrində və digər obyektlərdə keçirir. Kampaniya profilaktik və maarifləndirmə məqsədi daşıyır.

**ATU-nun mətbuat xidməti**

**Dekabrın 25-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının 5 illik fəaliyyətinə həsr olunan toplantı keçirildi.**

# 5 İL SAĞLIĞINIZIN KEŞİYİNDƏ

Hər kəsi salamlayaraq bu günkü toplantının klinikanın 5 illik fəaliyyətinə baxış məqsədi daşıdığını söyləyən klinikanın direktoru, professor Surxay Musayev öncə II daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizovu anadan olmasının 60 illiyi münasibətilə kollektiv adından təbrik etdi.

Bundan sonra "5 il sağlığınızın keşiyində" hesabat məruzə ilə çıxış edən S.Musayev 2010-cu il oktyabrın 1-də ölkə başçısı cənab İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə klinikanın təntənəli açılış mərasiminin keçirildiyini bildirdi. 5 il ərzində bir çox uğurlara imza atıldığını söyləyən direktor bu işdə peşəkar və savadlı kollektivin rolunu xüsusi vurğuladı. S.Musayev ümumi sahəsi 25 min kvadratmetr olan, 15 mərtəbəli, 380 çarpayılıq stasionar şöbələrə və gündəlik 300-350 xəstəyə tibbi xidmət göstərə bilən konsultativ-diaqnostik poliklinikaya malik klinikada müayinə, müalicə və reablitasiya üçün hər cür şəraitin yaradıldığını dedi: "Əmək intizamını möhkəmləndirmək və təhlükəsizliyi təmin etmək üçün klinikada işə giriş və çıxış elektron kartlarla qeydiyyata alınır, elektron tabellər tərtib edilir. Personal kartlar eyni zamanda klinikanın xidməti liftlərinin istifadəsini səmərələşdirmək üçün istifadə olunur. Klinika intizama və təhlükəsizliyə nəzarət üçün 64 ədəd müşahidə kamerası, yanğın təhlükəsizliyi üçün həssas siqnalizasiya sistemi, eləcə də baş verə biləcək qəzalara təcili müdaxilə üçün vasitələrlə təchiz edilmişdir. Klinikada eyni vaxtda 640 nəfərlik tutumu olan 8 mühazirə zalı və 70 məşğələ otağının xidmətindən gün ərzində 2500-3000 nəfər istifadə edir ki, bu da kifayət qədər böyük rəqəmdir. Bundan əlavə, klinikada rezidentura və doktorantura xətti ilə yüksək ixtisaslı kadrların hazırlanması həyata keçirilir. Klinikanın və laboratoriyanın idarəetmə sistemlərini, eləcə də PAKS sistemini özündə birləşdirən 300-ə yaxın kompyuter, 20 moduldan ibarət şəbəkə bütün tibbi sənədləşmə prosesini sürətlə icra etmək, arxivləşdirmək, statistik işləmək, görüntüləri və laborator müayinələrin nəticələrini müalicə həkimlərinə, eləcə də dünyanın hər hansı ölkəsindəki mütəxəssisə ötürmək imkanına malikdir. Burada xarici ölkələrin qabaqcıl klinikaları və dünyanın görkəmli tibb mütəxəssisləri ilə video-əlaqə quraraq müzakirələr aparıb, məsləhətlər almaq mümkündür".



Klinikada əhaliyə müalicə-diaqnostik xidmətin əsasən 2 istiqamətdə - konsultativ-diaqnostik xidmət və stasionar müalicə xidməti - qurulduğunu söyləyən S.Musayev əsas ağırlığın konsultativ-diaqnostik poliklinikanın, ixtisaslaşdırılmış kabinet və laboratoriyaların üzərinə düşdüyünü vurğuladı. Bildirdi ki, klinikada fəaliyyət göstərən işçilərin say tərkibi 470 nəfərdən ibarətdir. Bunlardan 221 nəfəri klinikanın, 249 nəfəri isə kafedraların əməkdaşıdır.



5 il müddətində on minlərlə xəstəyə tibbi xidmət göstərilmişdir ki, bunlardan 20 minə yaxını stasionar, 150 minə yaxını ambulator, digərləri isə laboratoriya, rentgen, USM, KT, EEQ, EMQ və mammoqrafiya xidmətlərindən yararlanmışdır.

Amerika, Yaponiya, Almaniya, Fransa, Türkiyə və Cənubi Koreyanın aparıcı şirkətlərinin ən müasir cihaz və avadanlıqları ilə təchiz olunan klinikada Ürək Damar Mərkəzinin, hematologiya, pulmonologiya-allerqologiya və nefrologiya, revmatologiya və qastroenterologiya, endokrinologiya şöbələrinin, qan bankının, molekulyar genetika bölməsinin, peyvənd otağının və 4 yataqlı təcili yardım xidmətinin yaradılmasını artıq reallaşan hədəflər adlandıran S.Musayev görüləcək işlərin də hələ çox olduğunu diqqətə çatdırdı. Ürək Damar Mərkəzinin ölkəmizdə aritmiyaların diaqnozu və müalicəsi də daxil olmaqla, bütün kardioloji xidmətlərin bira arada verildiyi yeganə mərkəz olduğu, habelə kardiologiya sahəsində rezident hazırlığı ilə məşğul olan 3 mərkəzdən biri olduğu vurğulandı. Azərbaycan Tibb Universitetinin tarixində ilk dəfə olaraq ən yüksək standartlara cavab verən hematologiya şöbəsinin yaradıldığını və şöbənin bütün əməkdaşlarının - həkim, tibb bacısı və xadimələrinin dünyanın ən nüfuzlu klinikalarında ixtisaslaşmaq üçün kurslara göndərildiyini və hazırda ən ağır qan xəstəliklərinin müasir protokollara uyğun müalicə olunduğunu xüsusi qeyd etdi.

Klinikanın mərkəzləşdirilmiş diaqnostik laboratoriyasının imkanları üzərində geniş dayandı: "Gündəlik həyatda keyfiyyət ehtiyacdır, laboratoriyada isə məcburiyyətdir. Laboratoriya nəticələri əksər hallarda rəqəmsal olur, verilən rəqəmin doğru olubolmadığını yalnız rəqəmlərə baxaraq demək mümkün deyil. Xəstəyə verilən nəticənin doğruluğundan əmin olmaq lazımdır. Laboratoriyamızda bu prinsiplərə xidmət edən həm daxili, həm də xarici keyfiyyətə nəzarət sistemi mövcuddur. Xüsusi soyuq hava deposunun və depo proqramının mövcudluğu reaktivlərin yararlılıq müddəti keçmədən, səmərəli istifadəsinə şərait yaradır. Laboratoriyamız keyfiyyətə xarici nəzarət üçün "Türk Klinik Biokimya Uzmanlıq Dərnəyi Eksternal Kontrol" (KBUDEK) şəbəkəsinə qoşulmuşdur və əksər testlərə görə laboratoriyamız 500-ədək laboratoriya arasında ilk 10-a daxildir". S.Musayev növbəti hədəflərinin sümük iliyi transplantasiyası, insult mərkəzi, anadangəlmə ürək qüsurlarının invaziv üsullarla bərpası, uşaq psixonevrologi mərkəsi, pediatrik şöbələrin ixtisaslaşması olduğunu bildirdi.

ATUKA (Azərbaycan Tibb Universitetinin Kardiologiya Akademiyası) və ATUREK-in (Azərbaycan Tibb Universiteti Rezidentlərinin Elmi-təcrübi Konfransı) uğurlu fəaliyyətindən də söhbət açan S.Musayev klinikanın mütəmadi olaraq beynəlxalq səviyyəli konqres və konfranslara ev sahibliyi etdiyini də diqqətə çatdırdı. O, marketinq işlərinə də ciddi fikir verildiyini vurğulayaraq bütün hallarda müalicə-diaqnostik xidmətin və tədrisin prioritet məsələ olaraq qaldığını söylədi.

Tədbirdə çıxış edən kafedra müdirlərindən professor Əlihüseyn Hidayətov, professor Amaliya Əyyubova, professor İsfəndiyar İsmayılov, Ürək Damar Mərkəzinin rəhbəri, dosent Fərid Əliyev klinikanın 5 il ərzində inkişaf edərək ən müasir standartlara cavab verən bir mərkəzə çevrildiyini vurğuladılar.



Azərbaycan Tibb Universitetinin rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev çıxışında da bildirdi ki, bu klinikanın ərsəyə gəlməsi ilk növbədə ölkə prezidentinin, səhiyyə nazirliyinin və universitet rəhbərliyinin çox böyük diqqət və qayğısı sayəsində mümkün olub.

Klinikada müalicə işlərinin ən müasir standart və protokollara uyğun aparıldığını söyləyən prorektor qazanılmış təcrübənin tədris prosesinə tətbiqi istiqamətində müvafiq tövsiyələrini verdi: "Bütün görəcəyimiz işlər ən əvvəl tədrisə istiqamətlənməlidir. Tələbələrin tibbi bacarıqlara yiyələnməsi və rezidentlərin hazırlığı istiqamətində istənilən səviyyəyə nail ola bilmək üçün inkişaf etmiş ölkələrin təcrübəsini dərindən mənimsəməliyik. Təbii ki, universitet klinikası həmişə digər klinikalardan bir addım qabaqda olmalıdır. Çünki burada çalışan alimlər, professorlar demək olar ki, Azərbaycan səhiyyəsinin istiqamətverici mütəxəssisləridir. İndi tibb çeviklik tələb edir. Hər hansı bir klinikanın uğuru dünyada baş verən yenilikləri öz bazasına daha tez gətirməsi ilə ölçülür. Avropa ölkələrində, Türkiyədə bu məsələyə çox diqqətlə yanaşılır, mütəxəssis hazırlığına ayrıca önəm verilir.

Son illərdə klinikalarımızda müasir standartlara əsaslanan laboratoriyaların yaradılması, yeni diaqnostik vasitələrdən istifadə edilməsi və müalicə işlərinə universitet rəhbərliyinin təşəbbüsü ilə təhsil üçün Türkiyə və digər ölkələrə göndərilmiş yüksək ixtisaslı mütəxəssislərin cəlb olunması bizə arzuladığımız səviyyəyə çatmaq üçün geniş imkanlar verir".

S.Əliyev görülən işlər barədə ictimaiyyətin daha ətraflı məlumatlandırılmasının vacibliyini də vurğuladı. Başqa klinikalarımızla müqayisədə Tədris Terapevtik Klinikanın təşkilati işin qurulması, müalicə prinsipi, diaqnostik aparatların alınması və rezidentlərin hazırlığı baxımından yaxşı mənada fərqləndiyini deyən prorektor bu böyük kollektivin hər bir üzvünü qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə təbrik etdi, onların ailələrinə ruzi-bərəkət arzuladı.

Sonda professor Surxay Musayev də fəaliyyət göstərdikləri 5 il müddətində ölkə Prezidentinin, səhiyyə nazirliyi və universitet rektorluğunun diqqət və qayğısını daim hiss etdiklərini xüsusi qeyd edərək təşəkkürünü bildirdi. Bütün tibbi personalı və tədbir iştirakçılarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edərək doğma kollektivə yeni uğurlar dilədi.

Toplantıda kollektivə özündə klinikanın simvollarını əks etdirən hədiyyələr də təqdim olundu.

**A.KAMRANOĞLU**

**Fotolar Cənnətalı Çingizindir**

# GÖRKƏMLİ FİLOSOFUN 90 İLLİK YUBİLEYİ QEYD OLUNDU

**Dekabrın 28- də ATU-nun ictimai fənlər kafedrasında tanınmış alim, görkəmli filosof, əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Adil Məşədi Yusif oğlu Nəcəfovun anadan ilmasının 90 illiyinə həsr olunmuş elmi konfrans keçirildi.**



Kofransı giriş sözüylə açan universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev qeyd etdi ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin qoyduğu gözəl bir ənənə var. Hər zaman xalqımız, mədəniyyətimiz, elmimiz, təhsilimiz qarşısında xidmətləri olan insanların xatirəsi anılır, yubileyləri keçirilir. Bu ənənə bizim universitetdə də daim qeyd edilir. Professor Adil Nəcəfovun həyat və fəaliyyəti haqqında qısa məlumat verən prorektor bildirdi ki , Adil müəllim fəlsəfə kafedrasına rəhbərlik etdiyi dövrdə elmi, ictimai və pedaqoji fəaliyyəti ilə yanaşı, universitetimizdə gənc kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərmiş və onu tanıyanların qəlbində özünün möhtəşəm heykəlini ucaltmışdır.



ATU-nun ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev professor Adil Nəcəfovun həyat və fəaliyyəti haqqında geniş məruzə ilə çıxış etdi:

“Professor Nəcəfov Adil Məşədi Yusif oğlu 1925-ci il fevralın 12-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. Əmək fəaliyyətinə o, 1942-ci ildə Naxçıvanda çıxan “Şərq qapısı” qəzetində korrektor kimi başlamışdır. 1943-1944-cü illərdə Böyük Vətən müharibəsində döyüşlərdə iştirak etmiş və ağır yaralanmışdır. Ordudan tərxis olunduqdan sonra 1946-cı ildə Azərbaycan Dövlət universitetinin tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş və 1950-ci ildə oranı bitirmişdir. 1950-1953-cü illərdə Moskva şəhərində aspiranturada təhsilini davam etdirmiş və 1953-cü ildə Moskvada SSRİ EA-nın Fəlsəfə institutunda namizədlik dissertasiyası, 1967-ci ildə Bakı şəhərində “Sosialist millətlərinin mədəniyyətlərinin yaxınlaşması” mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1968-ci ildə professor olmuşdur.



Professor A.Nəcəfov 1963-cü ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin Fəlsəfə kafedrasının yaradıcısı və 1989-cu ilə qədər fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışmışdır. Professor A.Nəcəfov nəcib, qayğıkeş, insanları qəlbən sevən, sözün həqiqi mənasında “həyat filosofu” idi. Ona görə də kafedranın kollektivi, tələbələr və institutun professor və müəllim heyəti onu sevir və şəxsiyyətinə hörmət edirdilər. Onun rəhbərlik etdiyi dövrdə ATU-nun fəlsəfə kafedrasında onlarla müəllim namizədlik dissertasiyası müdafiə etmişdir. Kafedraya rəhbərlik etdiyi dövrdə professor A.Nəcəfovun çox böyük köməyi və məsləhəti sayəsində kafedra üzvlərindən Q.Bayramov və R.Əliyev doktorluq dissertasiyalarını müdafiə etmişdirlər. Bunlarla yanaşı respublikamızda çoxlu sayda doktorluq işlərinin, aspirant və iddiaçıların elmi rəhbəri, elmi məsləhətçisi və rəsmi opponenti olmuşdur. A.Nəcəfov respublikamızda nəşr edilmiş fəlsəfə və fəlsəfə tarixinə dair bir sıra dərs vəsaiti və monoqrafiyaların elmi redaktoru olmuşdur. (“Marksizmə qədər fəlsəfənin əsas inkişaf mərhələləri”, Bakı, 1962; “Dialektik materializm”, Bakı, 1972; “Tarixi materializm”, Bakı, 1968 ) və s”. Sözünə davam edən Q. Əliyev dedi ki, professor A.Nəcəfov harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq böyük hörmət və nüfuz sahibi olmuşdur. “Professor A.Nəcəfov Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun və Bakı Dövlət Universitetinin fəlsəfə üzrə elmi şuralarının daimi üzvü olmuşdur. Professor A.Nəcəfovun ictimai-siyasi və elmi-pedaqoji fəaliyyəti deməkolar ki, həmişə Azərbaycan Tibb Universiteti ilə bağlı olmuşdur. O, fəlsəfə kafedrasının müdiri olmaqla yanaşı, uzun illər institutun partiya komitəsinə rəhbərlik etmişdir. Professor A.Nəcəfovun elmi maraq dairəsi əsasən milli mədəniyyət problemlərinin tədqiqi ilə bağlıdır. Bu problemə dair 35-dən yuxarı monoqrafiya və məqalə çap etdirmişdir. Onlardan: “Ölkəmizdə mədəniyyətlərin inkişafı və yaxınlaşmasında keçmiş irsin rolu”. Bakı, 1964 (8 ç.v.); “Сближение культур социалистических наций”, Баку, 1970; “İnkişaf etmiş sosializm və mədəniyyət”, Bakı, 1978; “Литература и искусство-могучее средство нравственного воспитания”, Баку, 1978; “Ədəbiyyat və incəsənət mənəvi tərbiyənin qüdrətli vasitəsidir”, Bakı, 1978 və s. professor A.Nəcəfov təbabətin fəlsəfi, etik və estetik problemləri ilə yaxından məşğul olmuş, respublikanın tibb ictimaiyyətinin mənafeyi naminə yorulmadan çalışmışdır. Onun “Həkimlik sənətinin mənəvi əsasları”, Bakı, 1986 və “İncəsənət və səhhət”, Bakı, 1979 kitabları təbib-tələbələrin və bütövlükdə tibb işçilərinin stolüstü kitabı olmuşdur. “Ölkəmizdə milli mədəniyyətlərin inkişafı və yaxınlaşmasında keçmiş irsin rolu”, (Bakı, 1964) əsərində keçmişin mədəni irsinə münasibət məsələsi mədəniyyətin inkişafının mühüm qanunauyğunluğu olan varisliyin təkcə maddi mədəniyyətin deyil, həm də mənəvi mədəniyyətin inkişafındakı rolu geniş şəkildə şərh edilmişdir. “Sosialist millətlərinin mədəniyyətlərinin yaxınlaşması”, (Bakı, 1976) kitabından professor A.Nəcəfov Azərbaycan xalqının mədəniyyətinin başqa xalqların mədəniyyətləri ilə təması, mədəni əlaqələrin qarşılıqlı mübadiləsi, xalqların mənəvi sərvətlərinin mübadiləsinin mədəniyyətlərin inkişafının hərəkətverici qüvvə amili olması məsələləri araşdırılır. Professor A.Nəcəfovun “Həkimlik sənətinin mənəvi əsasları”, (Bakı, 1986) adlı kitabı təbabətin etik və estetik problemlərinə həsr edilmişdir. Müəllif kitabda ümumbəşəri əhəmiyyət kəsb edən insan sağlamlığı, onu qorumaq problemləri və bu sahədə səhiyyə işçiləri qarşısında duran vəzifələri araşdırır. Kitabda göstərilir ki, yaxşı həkim ancaq yüksək sənətkarlıq, müasir bilik səviyyəsi, təmiz qəlb, aydın təfəkkürlə həmahəng olanda yetişir. Ona görə də həkimlik əxlaqı prinsiplərini rəhbər tutan, tibb elmi və sənətinin müasir səviyyəsinə cavab verən, geniş dünyagörüşlü, təmiz fikir, təmiz əqidəyə malik olan həkimlər yetişdirmək mürəkkəb və asan olmayan bir prosesdir. Professor A.Nəcəfov Respublikanın, eləcə də institutun ictimai-siyasi həyatında yaxından və fəal iştirak edirdi. 1988-ci ildə başlanan erməni təcavüzü dövründə A.Nəcəfov çoxsaylı müxtəlif yığıncaqlarda, tələbələr arasında etdiyi çıxışlarda hadisələrə öz kəskin münasibətini bildirmiş, bu təcavüzü pisləmişdir. Həmin dövrdə öz doğma yurd-yuvalarından qovulmuş soydaşlarımızın düşdüyü acınacaqlı vəziyyət, doğma torpaqlarımızın erməni faşistləri tərəfindən zəbt edilməsi, hadisələrin sonrakı axarı Adil müəllimi mənəvi-psixoloji cəhətdən ciddi sarsıtdı. O, 1989-cu ilin oktyabrın 7-də qəflətən vəfat etdi”.

Məruzəçi çıxışında bildirdi ki, professor A.Nəcəfovun xidmətləri dövlət tərəfindən yüksək mükafatlar və adlarla qiymətləndirilmişdir: “I dərəcəli Vətən müharibəsi ordeni; Qırmızı Əmək Bayrağı ordeni; “Hərbi xidmətə görə”, “Almaniya üzərində qələbəyə görə”, “Fədakar Əməyə görə”, “Böyük Vətən müharibəsinin 30 illik qələbəsi” medalları ilə təltif edilmişdir. O, “Azərbaycan Respublikası əməkdar elm xadimi”, “Səhiyyə əlaçısı” kimi fəxri adlara da layiq görülmüşdür.

Bu gün Adil müəllimi xatırlayan çoxminli həkim mütəxəssislər var. Onun çoxsaylı dostları da bu gün yaşayırlar onun haqqında çox xoş xatirələr söyləyirlər. Prof.A.Nəcəfov hazırda bizimlə olmasada onun xatirələri həmişə onu tanıyanların qəlbində yaşayır. Allah rəhmət eləsin!”

Sonra xatirə çıxışları oldu. Akademik Böyükkişi Ağayev, Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev, oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur, Mərkəzi Elmi- Tədqiqat Laboratoriyanın direktoru, professor Qalib Qarayev, professorlar Nadir İsmayılov və Çingiz Rəhimov, dosent Cümşüd Cümşüdov professor A.Nəcəfovun Tibb Universitetinin həyatındakı əvəzsiz xidmətlərindən söhbət açdılar, onunla yaxın dostluq əlaqələrindən bəhs edən şirin xatirələrini dilə gətirdilər. Professor A.Nəcəfovu respublikamızın, eləcə də o dövrdə SSRİ-nin fəlsəfə ictimaiyyətinin istedadlı alim, qayğıkeş insan kimi tanıdığın, və hörmət etdiyini söylədilər.

Natiqlər çıxışlarında böyük alimin həyat və fəaliyyətinin işıqlandırılması üçün ayrıca internet səhifəsinin yaradılmasını təklif etdilər. Onlar vurğuladılar ki, əsl Azərbaycan ziyalısı kimi bütün keyfiyyətlərə malik olan müdrik insan, professor Adil Nəcəfov Tibb Universitetinin məzunlarının, professor-müəllim heyətinin yaddaşında daim xeyirxah, obyektiv, ədalətli, eləcə də prinsipial bir filosof-müəllim kimi indi də yaşamaqdadır.

Alimin ailə üzvləri adından çıxış edən Kəmalə Əfəndiyeva professor Adil Nəcəfovun xatirəsinə göstərilən bu ehtirama görə Tibb Universitetinin rəhbərliyinə, ictimai fənlər kafedrasının kollektivinə və eləcə də bütün tədbir iştirakçılarına dərin təşəkkürünü bildirdi.

Sonda tədbir iştirakçıları ictimai fənlər kafedrasının foyesində professor Adil Nəcəfovun məqalə və kitablarından ibarət təşkil olunmuş stentlə də tanış olmuşlar.

**MƏNSUR**

Mütəxəssis sözü

# Monoartritlərdə həkim taktikası

**Son illər müasir müayinə üsullarının intensiv inkişafı revmatoloji xəstəliklərə vaxtında diaqnoz qoyulmasını şərtləndirən amillərdəndir. Təəssüflə qeyd etmək yerinə düşər ki, bu gün də tək bir oynağın iltihabı və zədələnməsi kimi anlaşılan monoartritin düzgün diaqnozu gecikir. Elə bu baxımdan həmkarlarımızla monoartrit haqqında qısa bir fikir mübadiləsinə ehtiyac duyduq. İlk öncə monoartritlə müşahidə olunan xəstəliklərin siyahısı ilə tanış olaq: Septik (bakterial, mikobakterial, laym xəstəliyi), mikrokristallik artritlər: (podaqra, pirofosfat kalsium, hidroksiapatit və kalsium oksalat kristallarının oynaqlara çökməsi), travmalar (sınıqlar, oynaqdaxili zədələnmə, hemartroz), osteoartroz, yuvenil revmatoid artrit, koaqulopatiyalar, aseptik nekrozlar, villezonodulyar piqment sinoviti, sinovioma.**

Poliartritlə müşayiət olunan bir sıra xəstəliklərdə başlanğıcda bəzən bir oynağın zədələnməsi özünü göstərir: revmatoid artrit, yuvenil revmatoid artrit, virus artritləri, sarkoidoz, Reyter sindromu, psoriaz, Uippl xəstəliyi, Kron xəstəliyi, qeyri-spesifik xoralı kolit.

Həmişə olduğu kimi diaqnoza aparan yolda anamnez öz mühüm əhəmiyyətini saxlayır. Anamnez toplayarkən C.Sterlinqə görə aşağıdakı 9 sualı verməkvacibdir:

1. Ağrılar bir neçə saniyə və dəqiqə ərzində qəflətən baş verdimi (Oynaqdaxili zədələnmə və ya sınıq şübhəsinə görə)?
2. Ağrı bir neçə saat və ya 1-2 gün ərzində inkişaf edibmi (Ehtimal olunur: infeksiya, mikrokristallik artrit, palindrom revmatizm)?



diz oynağının osteartrozu



bud çanaq oynağının osteonekrozu

3. Ağrı tədricən bir neçə gün və ya həftə ərzində inkişaf edibmi (Ehtimal olunur: gizli keçən mikobakterial və ya göbələk infeksiyası, osteoartroz, şişlər, kristalların çökməsi)?
4. Yaxın və ya uzaq keçmişdə oynağın zədələnməsi, oynağın yüklənməsi olubmu (Travmatik səbəblər baxımından)?
5. Anamnezdə venadaxilinə narkotik yeridilməsi varmı? Yaxın keçmişdə infeksiyaya yoluxma varmı (infeksiya ehtimalı)?
6. Əvvəllər oynaqların hansı birindəsə kəskin ağrı və ya ödəm olmuşdurmu (Mikrokristallik artrit və ya oynaqda iltihabi proses ehtimalı)?
7. Xəstə son dövrlər uzunmüddətli qlükokordikoid alıbmı (Sümüklərin infeksion zədələnməsi və ya osteonekros ehtimalı)?
8. Xəstədə dəri səpgiləri, beldə ağrı, diareya, uretradan ifrazat, konyunk tivit, ağız boşluğunda eroziyalar müşahidə edilibmi (Reyter sindromu, psoriatik artrit, bağırsaq patologiyası ilə bağlı artritlər ehtimalı)?
9. Anamnezdə qanaxma olubmu Antikoaqulyantlarla müalicə alıbmı? (Hemartroz ehtimalı)?

Yuxarıdakı suallarla yanaşı infeksiya amillərini nəzərə almasaq xəstələrin yaş qrupları da differensial-diaqnostik əhəmiyyət daşıyır. Uşaq və yeniyetmələr üçün bud-çanaq oynağının anadangəlmə displaziyası, bud sümüyü başının yerdəyişməsi, yuvenil revmatoid artritin monooynaq forması daha çox xarakterikdir. Bu yaş qrupu üçün mikrokristallik artrit az ehtimallıdır. Gənc yaş qruplarında seroneqativ spondiloartropatiya, revmatoid artrit, oynaqdaxili zədələnmə daha çox təsadüf edir. Yaşlı şəxslərdə isə xüsusən mikrokristallik artrit, osteoartroz, osteonekroz və oynaqdaxili zədələnmələr az xarakterikdir.

İlk dəfə təyin olunmuş monoartritin diaqnozunda ən mühüm sinovial mayenin tədqiqidir. İnfeksiyayaya, mikronkristallik artritə, hemartroza şübhə olduqda, eləcədə artrit və artrozların diferensial diaqnozu baxımından artrosentezin aparılması əsas göstəriş hesab olunur. Bir sıra müayinələr monoartritlərin diaqnostikasını asanlaşdırır: Zədələnmiş oynağın eyniadlı sağlam oynaqla birgə rentgenoqrafiyası; Qanın klinik analizi; Qanın və sidiyin əkilməsi, koaquloqramma, eritrositlərin çökmə sürəti, antinuklear antitellər və revmatoid amilin seroloji müayinəsi, sidik turşusunun zərdabda konsentrasiyası.

Xroniki monoartritə gəlincə bu bir oynağın zədələnmə simptomlarının 6 həftədən çox davam etməsi başa düşülür. Bu zaman yuxarıdakı müayinələrlə yanaşı bir sıra müayinələr də aparılır: oma-qalça oynaqlarının rentgenoqrafiyası (spondiloartrtopatiyaların başlanğıc mərhələsi üçün), döş qəfəsinin rentgenoqrafiyası (keçirilmiş vərəm və ağciyər sarkoidozu), dəri tuberkulin sınaqları.

Xroniki monoartritlərin diferensial diaqnostikası baxımından aşağıdakı əlavə müayinələr aparılır: 1. Artroskopiya 2. Sinovial qişaların biopsiyası – bu üsulla şişlərə, villyozonodulyar piqment sinovitinə, sinovial xondromatoza, sinoviomalara, sarkoidoz artritinə, göbələk və vərəm infeksiyalarına diaqnoz qoymaq mümkündür. 3. Oynaqların maqnit-rezonans müayinəsi- bu müayinə ilə aseptik nekroza, osteomielitə, diz oynağının oynaqdaxili patologiyasına, oynaqətrafı sümük toxumasının dağılmasını aşkar edə bilir. 4. Sümüklərin sitsintiqrafiyası-aseptik nekroz, osteomielit hallarında mühümdür.

**Nağdəli ZAMANOV,**
*I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti*

# Ağız və üz-çənə cərrahı hansı xəstəlikləri müalicə edir?

- **Ağız və üz-çənə cərrahiyyəsi üz-çənə nahiyəsinin iltihabi proseslərinin, travmatik zədələnmələrinin, andangəlmə və qazanılma qüsur və deformasiyalarının, xoş və bədxassəli yeni törəmələrinin etiologiyasını, patogenezini, müalicə və diaqnostikasını öyrənən, cərrahiyyənin mühüm sahəsidir.**



Ağız və üz-çənə cərrahiyyəsi şöbəsində aparılan əməliyyatları təcili və planlı olmaqla iki qrupda birləşdirmək olar. Təcili əməliyyatlara üz-çənə və boyun nahiyəsinin odontogen (diş mənşəli) və qeyri-odontogen iltihabi proseslərinin müalicəsini, üz-çənə nahiyəsinin yumşaq və sərt toxumalarının travmatik zədələnmələrinin, üz skeleti sümüklərinin sınıqlarının operativ müalicəsini aid etmək olar.

Planlı əməliyyatlardan isə ağız, diş cərrahiyyəsini və dental impantasiya kimi əməliyyatları, tüpürcək vəzilərinin xəstəliklərinin cərrahi müalicəsini, gicgah-çənə oynağı xəstəliklərinin müalicəsini, anadangəlmə dodaq və damaq yarıqlarının bərpasını, diş-çənə sistemi anomaliyalarında aparılan ortognatik əməliyyatları (çənənin önə və arxaya çəkilməsi), üz-çənə nahiyəsinin plastik və rekonstruktiv əməliyyatlarını, üz-çənə və boyun nahiyəsinin yumşaq və sərt toxumalarının xoş və bəd xassəli şişlərinin cərrahi müalicəsini özündə birləşdirir.

Son dövrlərdə üz-çənə cərrahiyyəsində ən son nailiyyətlərinin–mikrocərrahiyyənin, sümük distraksiyasının, lazer stereolitoqrafiyasının, virtual modelləşdirmə və digər metodların tətbiqi uğurla həyata keçırılməkdədir.

**Məhəmməd DAVUDOV,**
*Ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri, t.ü.f.d.*

# Yeni test ilə ana bətnində olan dölün genetik xəstəliklərinin erkən dövrdə diaqnozunu sadələşdirmək olacaq



Plymouth Universiteti alimləri hələ ana bətnindəikən dölün cinsini, qan qrupunu və genetik xəstəliklərin riskini erkən dövrdə qeyri–invaziv yolla aşkarlayacaq bir metod üzərində işləyirlər. Bu adi qan analizidir. NDTV–nin sözlərinə görə "Mütəxəssislərin fikrincə, indiyə qədər mövcud olan metodlar həm kifayət qədər dəqiq deyil, həm də risklidir".

Onlar bir neçə hemofiliya və Duşenn əzələ distrofiyası riskini daşıyan analarda test aparmağı təklif etmişlr. Bundan əlavə, test yeni doğulmuşun (ana ilə dölün arasında qan rezus uyğunsuzluğu) hemolitik xəstəliyi riskini qiymətləndirməyə kömək edəcəkdir. Bunun üçün hamiləliyin ilkin dövründə qan analizi götürmək lazım olur.

Bu gün hamiləlik zamanı hələ doğulmamış uşağın genetik xəstəliklərinin diaqnostikası üçün amniosentez həyata keçirilir – amniotik membranın punksiyası, dölyanı mayedən nümunə götürmək məqsədilə. Bu metodla dölün düşük ehtimalı 1% təşkil edir. Lakin yeni üsul bu riski əhəmiyyətli dərəcədə azaldır. Tədqiqatçılar əlavə edirlər ki, bununla xəstəliyin erkən diaqnozu və uşağın vaxtında müalicəsi mümkündür.

# ATU-nun Mərkəzi Metodik Komissiyasının iclası keçirildi

**Dekabrın 18-də Azərbaycan Tibb Universitetinin (ATU) Mərkəzi Metodik Komissiyasının (MMK) iclası keçirilib. İclası açıq elan edən komissiya sədri, tədris işləri üzrə prorektor Sabir Əliyev tədbir iştirakçılarını gündəliklə tanış edib.**



Daha sonra komissiya üzvləri 2015/2016-cı tədris ilində ilk imtahan sessiyasına hazırlıqla bağlı müzakirələr aparıblar. ATU-nun tədris şöbəsinin müdiri, dosent Nəsimi Qasımov





qış imtahan sessiyası ilə əlaqədar görülən işlər, nəzərdə tutulan tədbirlər planı haqqında məlumat verib. O qeyd edib ki, imtahan sessiyasının təşkili zamanı universitet tərəfindən tərtib olunmuş tədris planlarına və mövcud təlimatlara riayət edilməlidir. Həmçinin, sessiyanı mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirməsində şəffaflığın və obyektivliyin təmin olunmasının vacibliyi qeyd olunub. Bununla yanaşı, ötən tədris ilindəki payız imtahan sessiyasından kredit borcu qalan tələbələrin kredit borclarını ləğv edə bilmələri üçün dərslərdə iştirak etmələrinə şərait yaradılmasının önəmi də vurğulanıb.

Sonda 2015/2016-cı tədris ilinin payız (qış) imtahan sessiyasının şəffaf, təlimata uyğun şəkildə keçirilməsi üçün hazırlıq işləri ilə əlaqədar müvafiq göstərişlər verilib.

# MUMEENA layihəsinin yekunları müsbət qiymətləndirildi

Azərbaycan Tibb Universitetində Avropa Komissiyasının "Erasmus Plus" proqramının Azərbaycan ofisinin rəhbəri Pərviz Bağırov və ofisin digər təmsilçiləri ilə görüş keçirilib.



ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri, dosent Nadir Zeynalov qonaqlarla Tədris Cərrahiyyə Klinikasında görüşüblər.

Görüş zamanı ATU-nun 2011-2014 illərdə iştirak etdiyi MUMEENA layihəsinin nəticələri müzakirə olunub.

Proqram təmsilçilərinə görülən işlər, klinik hadisələr üzərində klinik əsaslandırma (CBCR), tədqiqat vərdişlərinin və geriatriyanın tədrisi istiqamətində atılmış addımlar barədə məlumat verilib.

MUMEENA layihəsinin Azərbaycan Tibb Universitetinə verdiyi töhfə yüksək qiymətləndirilib. Həmçinin, gələcəkdə Tibb Universitetinin "Erasmus Plus" proqramı çərçivəsində yeni layihələrə qoşulmasının vacibliyi xüsusi vurğulanıb.

Qonaqlar həmçinin sözügedən layihə çərçivəsində yaradılmış Müəllimlərin Təlim Mərkəzinə və həmin mərkəz üçün alınmış avadanlığa baxış keçiriblər. Layihənin yekunları müsbət qiymətləndirilib və Mərkəzdə yüksək səviyyəli şəraitin yaradıldığı qeyd olunub.

# Kolorektal cərrahların və rezidentlərin iştirakı ilə toplantı keçirildi

Toplantı Cərrahi xəstəliklər şöbəsinin müdiri, professor Xaləddin Musayev, tibb üzrə fəlsəfə doktoru, I cərrahi xəstəliklər kafedrasının assistenti Solmaz İmanova, tibb üzrə fəlsəfə doktoru Aynur Safiyeva və Cərrahı xəstəliklər kafedrasının dosenti, Tibb Elmlər Doktoru Eldar Əliyevin təşkilatçılığı altında həyata keçirildi.



Toplantının birinci hissəsində professor Xaləddin Musayev «Azərbaycan kolon və rektum cərrahi dərnəyi» adlı cəmiyyətin yaradılması ilə bağlı plandan söhbət açdı. Planlaşdırılan dərnəyin yaradılmasında məqsəd dərnək üzvlərinin bu



sahədə haqlarının qorunması, onlara öz ixtisasları üzrə ixtisaslaşmalarına yardım etmək, standartlara uyğun olaraq həkimlərin xəstələrə xidmət göstərməsini təmin etməkdir.

Dərnəkdə təlimləndirici seminarların, treninqlərin keçirilməsi, elmi konfranslar, simpozium və seminarların keçirilməsi, elmi məqalələrin dərc edilməsi, Beynəlxalq səviyyədə (Türkiyə, Rusiya, Avropa) iş birliyi aparmaq, yeni praktika və bacarıqların əldə edilməsi üçün xarici ölkələrdən mütəxəssislərin dəvət olunmasının planlaşdırılması barədə söhbət açıldı.

Bundan əlavə, əhalini maarifləndirmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə etmək nəzərdə tutulur.

Həmçinin dərnəyin vəzifə və hüquqları, üzvləri, etik qruplar, etik standartlar və s. mövzulardan da söhbət açıldı. Toplantının ikinci hissəsində tibb üzrə fəlsəfə doktoru, I cərrahi xəstəliklər kafedrasının assistenti Solmaz İmanova «Pararektal fistulların müalicəsində seton tətbiqi zamanı müşahidə olunan fəsadlar» mövzusunda məruzə ilə çıxış etdi. Məruzədən sonra iştirakçılar ilə mövzu ətrafında maraqlı disskusiyalar aparıldı.

**ATU-nun mətbuat xidməti**

# Yeni ixtira olunmuş aparat ürəyin orqanizmdən kənarda döyünməsini təmin edir

Amerika alimləri yeni aparat icad etməyə nail oldular, hansı ki, bununla ürəyin orqanizmdən kənarda fəaliyyətinin davam etməsinə imkan verir. Bu da ürək əməliyyatlarının uğurlu aparılması şansını iki dəfə artırmış olur.



Texnologiya "Organ Care System" adlanır. Bunun köməyi ilə ürəyi daha uzaq məsafələrdən transplantasiya üçün çatdırmaq olur, elcə də orqanı dondurmağa ehtiyac qalmır, belə ki, transplantasiya zamanı ürək öz döyüntülərini davam edir, deyə Huffington Post xəbər verir.

Aparatın köməyi ilə həmçinin böyrək və ağciyər də "həyat əlamətlərini" saxlayır. Bundan əlavə sidiyin böyrəklərdən süzülməsinə də imkan verir.

Görünüşünə görə bu aparat yarımşəffaf konteyner və xüsusi aparatdan ibarədir. Hansı ki, buna da bir neçə lazımi borular (trubkalar) taxılır. Onlar qan axını, hava və maye axınını dəyişir.

# Fəlsəfənin nəzəri əsaslarına dair dərs vəsaiti

"Fəlsəfənin nəzəri əsasları: problemlər, anlayışlar, prinsiplər" adlı dərs vəsaiti (mühazirələr kursu) fəlsəfənin aktual problemlərinə həsr olunmuşdur. Bu kitabda fəlsəfənin digər problemləri ilə yanaşı, fəlsəfənin təbabətlə əlaqəsi müasir yanaşmalar prizmasından işıqlandırılmış və ümumbəşəri dəyərlər sistemində fəlsəfənin yeri və əhəmiyyəti göstərilmişdir.




Tələbələrə və geniş oxucu kütləsinə təqdim edilən bu dərs vəsaitində həmçinin düha aləmi olan fəlsəfədən, fəlsəfi biliklərin insan və cəmiyyət həyatındakı rolundan, yeni dünyagörüşün formalaşmasında fəlsəfi irsin müstəsna əhəmiyyətindən və nəhayət fəlsəfənin özünü dərk etməsindən söhbət açılır. Zaman keçdikcə insan təcrübəsinin intellektual potensialı artmış, elmi biliklərin tətbiqi daha praktik məna kəsb etmiş, fəlsəfə də elm sahəsi kimi özünə yenidən "nəzər salmış" və metodoloji funksiyalarına nəzəri-tənqidi yanaşmağa başlamışdır. Kitabda həmçinin fəlsəfənin əsas funksiyası kimi bu gün də mürəkkəb təbiət-cəmiyyət aləmində insana ləyaqətli yaşam dünyagörüşü aşılanmışdır.

On beş fəsildən ibarət olan dərs vəsaitində ilk dəfə olaraq insan sağlamlığının fəlsəfəsi, fəaliyyətin fəlsəfəsi problem kimi araşdırılmasına, elmin və onun etikasına, elmi axtarışlarda azadlıq və tədqiqatçının sosial məsuliyyətinə və fəlsəfi problemlərinin cədvəl və diaqramlarda işıqlandırılmasına geniş yer verilmişdir.

Bu dərs vəsaiti elmi işçilər, tibb işçiləri, fəlsəfə nəzəriyyəsinə marağı olanlar, tədqiqatçılar, tələbələr, aspirantlar və geniş oxucu kütləsi üçün faydalı ola bilər.

**Elbrus SADIQOV,**
*İctimai fənlər kafedrasının dosenti*

# Elektron Səhiyyə Mərkəzinə 31 mindən artıq vətəndaş müraciət edib

**Dekabrın 29-da Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Elektron Səhiyyə Mərkəzinin yaradılmasının bir ili tamam olur**




Nazirliyin mətbuat xidmətindən bildirilib ki, il ərzində Elektron Səhiyyə Mərkəzinə 31 mindən artıq vətəndaş müraciət edib və onların problemlərinin əksər hissəsi yerindəcə həll olunub. Eyni zamanda, nazirliyin "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 528 müraciət araşdırılıb.

Elektron Səhiyyə Mərkəzinin yaradılmasında əsas məqsəd şəffaflığı qorumaq, vaxt itkisinə yol vermədən əhaliyə keyfiyyətli və səmərəli sosial xidmətlər göstərməkdir. Bir pəncərə sistemi ilə fəaliyyət göstərən mərkəzə müraciət edən vətəndaşlar birbaşa məmurla deyil, xüsusi təcrübəli mütəxəssislərlə ünsiyyətdə olurlar. Mərkəzin iş prinsipi hər bir vətəndaş üçün daha sadələşdirilmiş qaydada qurulub. Belə ki, ölkənin istənilən bölgəsindən vətəndaşın zəngi, müraciəti Səhiyyə Nazirliyinin bütün şöbələri və strukturları ilə sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərən peşəkar həkimlərdən ibarət operatorlar tərəfindən diqqətlə dinlənilir. Mövzuya dair ətraflı məlumat toplandıqdan sonra məsələnin həlli üçün müvafiq addımlar atılır. Zəruri hallarda mərkəzə daxil olan müraciətlər operatorlarla yanaşı, Səhiyyə Nazirliyinin rəhbər şəxsləri tərəfindən cavablandırılır.

Müşahidələrə görə, vətəndaş müraciətləri sırasında səhiyyə müəssisələrinin fəaliyyətinə dair məlumat, yeni yaşayış yeri üzrə poliklinikada qeydiyyat, tibbi arayışın alınması və s. bu kimi müraciətlər üstünlük təşkil edir. Bəzi hallarda vətəndaşlar səhiyyə müəssisələrinin bu və ya digər əməkdaşının göstərdiyi xidmət səviyyəsinin qənaətbəxş olmaması barədə də məlumat verirlər. Belə olan halda nazirliyin əməkdaşları dərhal səhiyyə müəssisəsi ilə əlaqə saxlayaraq vətəndaşın müraciəti barədə məlumat verir, məsələni araşdırır.

# Respublika Klinik Xəstəxanasının I korpusu əhalinin istifadəsinə verilib

**Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının I korpusu əsaslı təmirdən sonra istifadəyə verilib.**




Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, ümumilikdə şöbələr üzrə 200 çarpayısı olan korpus yüksək keyfiyyətli avadanlıqlarla, elektron idarə olunan stollarla, narkoz aparatları ilə təchiz olunub. Reanimasiya şöbəsində xaricdə istehsal olunan yüksək səviyyəli süni tənəffüs aparatları və xəstəyə təcili yardım göstərmək üçün digər cihazlar quraşdırılıb.

Korpus əlil arabaları, video qastro dayaq dəsti, Almaniya istehsalı olan oftalmoskop, otoskop, lor baxış alət dəsti ENES, lor kombayn, aspirator, irriqator və kompressor, video endoskop və işıq qaynağı, endoskop üçün monitor, yenidoğulmuşların intensiv terapiyası üçün neonatal inkubator, avtomatik hava və oksigen dozatoru və s. ən son texnoloji avadanlıqlarla təmin edilib.

# Bayram günlərində təcili yardım briqadalarının sayı artırılacaq

**Yeni il bayramı və 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günündə Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yadım Stansiyası gücləndirilmiş iş rejimində çalışacaq.**




Bu barədə AZƏRTAC-a Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkiminin müavini Oqtay Şahmalıyev məlumat verib. Onun sözlərinə görə, adi günlərə nisbətən təcili yardım briqadalarının sayı artırılacaq. Belə ki, bayram günlərində 140-a qədər briqada xətdə olacaq. Çünki bayram günlərində təcili yardıma müraciət edən insanların sayı çox olur ki, bu da həmin günlərdə xəstəxana və poliklinikaların işləməməsi ilə bağlıdır.

Baş həkimin müavini əlavə edib ki, bununla yanaşı, bayram günlərində növbətçilik qrafiki tutulacaq, stansiyanın, eləcə də ərazi stansiyalarının rəhbərliyi işdə olacaq. O.Şahmalıyev Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yadım Stansiyasının lazımi avadanlıq və dərman vasitələri ilə tam təchiz olunduğunu da bildirib.

# İnternetdən asılılıq qripə və infarkta gətirib çıxardır

**Britaniyanın Suonsi Universitetinin və Milan Universitetinin alimləri maraqlı tədqiqat aparıblar. Onlar sübut ediblər ki, internet-asılılıq insan orqanizminin immunitetini məhv edir.**



AZƏRTAC "newsland.com" saytına istinadla xəbər verir ki, tədqiqatçılar yaşı 18-dən çox olan 500 nəfərdən ibarət fokus qrupunu sorğu-sual ediblər. Onların azı 40 faizi orta və ya ağır dərəcəli internet-asılılıqdan əziyyət çəkirmiş. Bir neçə maraqlı qanunauyğunluq üzə çıxıb. Əvvələn, şəbəkədən asılı olan insanların 30 faizi soyuqdəymədən və qripdən daha çox əziyyət çəkir. İkincisi, internetdən asılı olan istifadəçilər, məsələn, şəbəkə işləməyəndə çox narahat və stressə qarşı davamsız olurlar. Alimlər hesab edirlər ki, şəbəkəyə qoşulandan sonra gərginliyin azalması orqanizmdə kortizolun səviyyəsini güclü surətdə dəyişir. İmmun sisteminin qoruyucu funksiyalarını xeyli dərəcədə kortizol müəyyən edir.

Bundan əlavə, internet fanatları başqa adamlarla nadir hallarda canlı ünsiyyət qurur və deməli, özlərini mikrobların təsirindən qoruyurlar. Belə təcrid də immuniteti sarsıdır.

Əlavə etmək olar ki, internetdən asılı istifadəçilər doyunca yatmır, daha çox siqaret çəkir, spirtli içki içir, idmanla məşğul olmurlar.

Alimlər xəbər verirlər ki, tədqiqat iştirakçılarının çoxu internetdən orta hesabla gündə altı saat istifadə edib.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin III kurs, 742a qrup tələbəsi Nima Keshvavinin adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin V kurs, 1133b qrup tələbəsi Yolçuyev Vüsal Əlövsət oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Mustafayeva Günay Ramiz qızına 2010-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən mama ginekologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rzayeva Sevinc Sabir qızına 2001-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rzayeva Sevinc Sabir qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Zeynalova Zərifə Eldar qızına 1996-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən oftalmoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 784b qrup tələbəsi Xanmədova Bəsti Tarif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 211a qrup tələbəsi Axundov Nurlan Surxay oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.






Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 282